Mərhəmətli və Rəhmli Allahın adı ilə

أذربيجان

# Qurani-Kərim nədir?

Qurani-Kərim, aləmlərin Rəbbi və Xaliqi olan Allahın kəlamıdır. Allah onu peyğmbərlərin və elçilərin sonuncusu olmuş Muhəmmədə - səllallahu aleyhi və səlləm -nazil etmişdir ki, o, insanlara və cinlərə yaradılışlarının qayəsini bəyan etsin, dünyada və axirətdə səadətə qovuşmaları, dünyadan köçdükdən sonra da əbədi həyatda bədbəxt olmamaları üçün onlara doğru yol göstərsin. Qurani-Kərim Allahın nazil etdiyi səmavi kitabların sonuncusu, o kitabları təsdiqləyən və onlardakı şəriət qayda-qanunlarını nəsx edən bir Kitabdır.

Qurani-Kərim əbədi qalan və Muhəmmədin - səllallahu aleyhi və səlləm - peyğəmbər olduğunu isbat edən dəlildir. Uca Allah insanlara və cinlərə buna bənzər bir kitab, hətta bu kitabda olan surələrdən birinə bənzər bir surə gətirmələrini buyurmuş, lakin onlar bunu etməyə aciz qalmışlar.

On dörd əsr ərzindən heç kəsin onu təhrif etməyə və dəyişdirməyə qüdrəti çatmamış, bundan sonra da nazil olduğu kimi ərəb dilində dəyişilməz olaraq qorunub saxlanılacaq. Çünki Allah subhanəhu və təalə onu Qiyamətədək qoruyacağını Öz öhdəsinə götürmüşdür.

Qurani-Kərim İslam dininin istinad etdiyi əsas mənbə, bəşəriyyətin həyat tərzini nizamlayan, üstəlik, hər zaman və hər məkanda onlara hökm verən qanundur. Qurani-Kərim insanları və cinləri onları Yaradan tək İlaha ibadət etməyə dəvət edir, onlara Rəbbini və dinini tanımağın yolunu göstərir, kainatın ilkin yaradılışı və insanın ana bətnində mərhələlərlə yaranması, habelə keçmişdə olanlar və gələcəkdə baş verəcək hadisələr, üstəlik, əvvəlki peyğəmbərlərin - aleyhimussəlam - başlarına gələn hadisələr və Allahın onlara kömək etməsi, düşmənlərini də məhv etməsi barədə xəbər verir.

Hörmətli oxucu! Allahın ərəb dilində nazil etdiyi və bəşəriəyyətə təbliğ edilməsini vacib buyurduğu bu əzəmətli Kitabın nə dərəcədə əhəmiyyətli olduğunu göstərmək üçün, Quranın sənin dilində olan mənaca tərcüməsini sənə təqdim edirik ki, onu oxuyub başa düşəsən və başqalarına təbliğ edəsən. Bununla yanaşı yəqin bilməlisən ki, Qurani-Kərimin dəqiq tərcümə edilməsi üçün nə qədər cəhd edilsə də, onun dərin mənalarını ərəbcə olduğu kimi tam şəkildə ifadə etmək mümkün deyil. Qurani-Kərimin xəbər verdiyi həqiqətləri daha dəqiq başa düşmək istəyən hər kəsə ərəb dilini öyrənməyi nəsihət edirik.

Allahın elçilərinə salam olsun! Həmd aləmlərin Rəbbi Allaha məxsusdur!

Qurani-Kərimin ensiklopediyası

Qurani-Kərimin sənin ana dilində olan mənaca tərcüməsini telefonun kamerası ilə ekranda görünən (QR kod) vasitəsilə açıb oxuya bilərsən.

Qurani-Kərimin ensiklopediyası
**www.quranenc.com**

saytındakı hər bir ayənin qarşısına qoyulmuş mülahizə pəncərələrinə yazacağınız təkliflərinizi və mülahizələrinizi məmnuniyyətlə qəbul edəcəyik. Bizimlə əlaqə qurmaq istəsəniz, aşağıdakı elektron ünvan vasitəsilə bizimlə məktublaşa bilərsiniz:

موسوعة القرآن الكريم
QuranEnc.com

**info@quranenc.com**

www.islamHouse.com